# Dünyanın nüfuzlu informasiya agentliyi

**1920**-ci il martın 1-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən yaradılan Agentlik sovet hakimiyyəti illərində müxtəlif adlarla fəaliyyət göstərib. Azərbaycan yenidən dövlət müstəqilliyini bərpa etdikdən sonra tarixi adını özünə qaytaran qurum 1995-ci il martın 3-dən Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyi, 2000-ci il yanvarın 17-dən Azərbaycan Dövlət Teleqraf Agentliyi adlandırılıb. 26 fevral 2015-ci ildə Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) Azərbaycan Dövlət İnformasiya Agentliyi (AzərTAc) adlandırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) adı dəyişdirilərək Azərbaycan Dövlət İnformasiya Agentliyi (AzərTAc) adlandırılıb. 24 noyabr 2016-cı ildə Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Dövlət orqanı" hüquqi statusuna malik Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) əsasında "Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC)" publik hüquqi şəxs yaradılıb. 2018-ci il martın 15-də Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə Aslan Aslanov Azərbaycan Dövlət İnformasiya Agentliyi İdarə Heyətinin sədri təyin edilib.




*Ən etibarlı, dürüst xəbər yayan qurum yüksək imicini bu gün də qoruyub saxlayır*

AZƏRTAC xəbər verir… Bu gün çoxsaylı yerli və dünyanın kütləvi informasiya vasitələri, media orqanları ən doğru məlumatların çatdırılmasında bu quruma istinad edir. Fəaliyyət prinsiplərinə və məqsədlərinə hər zaman sadiq qalan AZƏRTAC aparıcı media qurumu olaraq dövlət səviyyəsində rəsmi xəbərləri, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında baş verən yeniliklər barədə informasiyaları ictimaiyyətə çatdırmaq və ölkəmiz haqqında obyektiv məlumatları beynəlxalq miqyasda geniş yaymaq missiyasını layiqincə yerinə yetirir. Bu baxımdan 30 ilə yaxın müddətdə işğal altında olan ərazilərimizin azad edilməsi, möhtəşəm Zəfərlə torpaqlarımızın bütövləşməsi, tarixi ədalətin bərpası ilə nəticələnən Vətən müharibəsində AZƏRTAC-ın fəaliyyətini xüsusi vurğulamaq lazımdır. Hazırda işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı abadlıq-quruculuq, yenidənqurma işləri, ölkə başçısının bölgələrə müntəzəm səfərləri barədə infomasiya qaynağı da AZƏRTAC-dır.

2020-ci ildə 100 illik yubileyini qeyd etmiş Azərbaycanın ilk milli informasiya yayımçısı olan AZƏRTAC çətin, lakin şərəfli yol keçib, hər bir tarixi mərhələdə üzərinə düşən missiyanı peşəkarlıqla yerinə yetirib. İlk xəbəri 1920-ci il martın 2-də işıq üzü görən Agentlik Azərbaycan Xalq Cümhuriyyətində baş verən hadisələri, hökumətin gördüyü işləri cəmi 58 gün işıqlandıra bilib. Sovet dönəmində isə ictimai-siyasi hadisələrdən asılı olaraq, fərqli aqibətlə üzləşib, adı 8 dəfə dəyişikliyə məruz qalıb. Bu yolun bütün mərhələlərində AZƏRTAC üçün dəyişməyən bir meyar olub və indi də var: yaydığı xəbərlərin geniş ictimai əhəmiyyəti, doğruzgünlüyü, dəqiqliyi və operativliyi. Ulu öndər Heydər Əliyevin respublikada hakimiyyətə ilk gəlişinə qədər bir növ, arxa planda qalan AZƏRTAC məhz ümummilli liderin iradəsi, şəxsi nüfuzu və qayğısı hesabına keçmiş sovet respublikalarının informasiya agentlikləri arasında qabaqcıl yerə çıxıb. SİTA-nın informasiya buraxılışlarını qəbul edib Cənubi Qafqaz respublikalarına ötürən mərkəzə çevrilib. Agentliyin əməkdaşları, həmçinin müxbir briqadalarının tərkibində xarici ölkələrə gedir, bilavasitə hadisə yerindən xəbərlər hazırlayırdılar. Sovet İttifaqında SİTA-dan və Ukrinformdan sonra tamamilə kompüterləşdirilən informasiya agentliyi AZƏRTAC olub. Texniki təchizata öz dövrünün ən müasir "T-100" teletaypını da əlavə etmək olar. Uzaq məsafələrə rəsmi sənədlərin - qərar, fərman və sərəncamların birbaşa ötürülməsinə imkan verən bu avadanlıqla ən çox təchiz olunan üç agentlikdən biri də AZƏRTAC idi.

Müstəqillik illərində də ulu öndər Heydər Əliyev dövlət siyasətinin informasiya təminatında AZƏRTAC-a xüsusi qayğı ilə yanaşırdı. 1995-ci il martın 3-də Agentliyin yenidən təşkil edilməsi haqqında imzaladığı Fərmanla AZƏRTAC-a dövlət informasiya orqanı statusu verilir, büdcə vəsaiti ayrılır, beynəlxalq informasiya məkanına çıxmaq qarşıya əsas vəzifə kimi qoyulur. Məhz həmin dövrdən AZƏRTAC regional və beynəlxalq media qurumlarına ilə sıx əlaqələr qurmağa başlayır. Bu strateji xətt dövlətimizin başçısı İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Hazırda Azərbaycan AZƏRTAC-ın timsalında Dünya Xəbər Agentlikləri Şurasının səsvermə hüququna malik 13 üzvündən biridir. Xarici ölkələrdə və bölgələrdə geniş müxbir şəbəkəsinə malikdir. AZƏRTAC bu gün dünya informasiya məkanında layiqli yer tutur, beynəlxalq və regional media qurumlarında fəal təmsil olunur. Bu istiqamətdə səmərəli fəaliyyətin nəticəsi olaraq 2016-cı ildə Prezident İlham Əliyevin himayəsi, birinci xanım Mehriban Əliyevanın dəstəyi, Heydər Əliyev Fondunun və AZƏRTAC-ın təşkilatçılığı ilə Bakı Dünya Xəbər Agentliklərinin V Konqresinə, Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının (OANA) XVI Baş Assambleyasına ev sahibliyi edib. 2016-2019-cu illərdə hər iki quruma sədrlik edən AZƏRTAC Azərbaycanın adını dünya mətbuat tarixinə yazdırıb.

AZƏRTAC 50-yə yaxın xarici xəbər agentliyi ilə əməkdaşlıq müqaviləsi imzalayıb, 150-dək agentliklə informasiya mübadiləsi aparır. Onların arasında TASS (Rusiya), Sinxua (Çin), Anadolu (Türkiyə), İRNA (İran), ANSA (İtaliya), KYODO (Yaponiya), Yonhap (Koreya Respublikası) və digər nüfuzlu milli xəbər yayımçıları var. Agentlik 8 dildə - Azərbaycan, rus, ingilis, alman, fransız, ərəb, Çin və ispan dillərində xəbərlər, eləcə də beş dildə (Azərbaycan, ingilis, rus, fransız və alman) videoxəbərlər yayır. AZƏRTAC-ın xarici ölkələrdə Agentliyin ABŞ, İngiltərə, Fransa, Almaniya, Avstriya, Latviya, Macarıstan, Rusiya, Ukrayna, Misir, Türkiyə, Gürcüstan, İran, Qazaxıstan, Özbəkistan, Rumıniya, İspaniya, İtaliya, İsveç, Çin və Yaponiyada, respublikanın bölgələrində 21 müxbir məntəqələri var. AZƏRTAC foto və yazılı informasiyalarla yanaşı, ölkənin sosial, siyasi, iqtisadi, idman həyatından videoxəbərlər hazırlayır, onları internet resursunda və sosial şəbəkələrdə yayır. Agentliyin beş veb-resursu və iki veb-servisi (interaktiv xəritə), üç mobil tətbiqi, fotosaytı və zəif görənlər üçün resursu var. Ölkə üzrə ilk ixtisaslaşmış videoxəbər studiyası 2010-cu ildə AZƏRTAC-da tətbiq olunmağa başlayıb. Ötən əsrin 20-ci ilindən Azərbaycan tarixinə şahidlik edən AZƏRTAC hazırda XXI əsrin salnaməsini yazmaqdadır.

Ötən ilin dekabrında Azərbaycan Prezidentinin müvafiq Sərəncamına əsasən Bakının Atatürk prospekti 70 ünvanında inşa olunan AZƏRTAC-ın yeni binası istifadəyə verilib. Binanın açılışında Azərbaycan Prezidenti İlham Əliyev iştirak edib, bina ilə tanış olub.

Müsahibələrinin birində qurumun beynəlxalq media təşkilatlarında təmsilçiliyi ilə bağlı mühüm məqamı xatırladan Azərbaycan Dövlət İnformasiya Agentliyi İdarə Heyətinin sədri Aslan Aslanov qeyd etmişdir ki, "Yadımdadır, 2002-ci ilin oktyabrında ulu öndər Heydər Əliyev mənə tapşırdı ki, çalışın AZƏRTAC dünya informasiya məkanına çıxsın. Bunun yolunu da göstərdi. Yaxşı xatirimdədir, dedi ki, informasiya agentliklərinin beynəlxalq təşkilatlarına üzv olun, milli xəbər agentlikləri ilə sıx əlaqələr qurun. Bizim EANA-ya, OANA-ya, sonradan bütün dünyanın xəbər agentliklərini öz sıralarında birləşdirən Konqresə gedən yolumuz, beynəlxalq əməkdaşlığımızın tarixçəsi belə başladı. Ulu öndərimizin böyük uzaqgörənliklə verdiyi tapşırığın nəticəsidir ki, AZƏRTAC bu gün bir vaxt üzv olmağa can atdığı həmin təşkilatlara sədrlik etmək hüququ qazanıb və onların yüksək səviyyəli tədbirlərinə ev sahibliyi edir".

Bu il fevralın 15-də Britaniyanın "Press Association" informasiya agentliyinin Londondakı baş ofisində Dünya Xəbər Agentlikləri Konqresi Şurasının (NACO) növbəti iclası keçirilib. İclasda tədbirin ev sahibindən əlavə, AZƏRTAC (Azərbaycan), TASS (Rusiya), EFE (İspaniya), BTA (Bolqarıstan), SPA (Səudiyyə Ərəbistanı), MAP (Mərakeş), "Agerpress" (Rumıniya) və Ərəb Ölkələri Xəbər Agentlikləri Federasiyasının (FANA) nümayəndə heyətləri, həmçinin, videorabitə vasitəsilə "Reuters" Agentliyinin və hazırda sədrlik etdiyi Avropa Xəbər Agentlikləri Alyansının (EANA) da təmsil edən Avstriyanın APA agentliyinin nümayəndələri iştirak ediblər. Qeyd edək ki, NACO öz sıralarında dünyanın bütün beş qitəsindən olan yüzdən çox informasiya agentliyini birləşdirən Dünya Xəbər Agentlikləri Konqresinin icra orqanıdır. AZƏRTAC hazırda 13 agentliyin, o cümlədən Associated Press, Reuters, Press Association (Böyük Britaniya), TASS (Rusiya), EFE (İspaniya), France Press (Fransa), SPA (Səudiyyə Ərəbistanı) kimi nüfuzlu media qurumlarının da daxil olduğu Dünya Xəbər Agentlikləri Şurasının daimi üzvüdür.

Onu da qeyd edək ki, Azərbaycanın artan nüfuzu, qazandığı uğurlar AZƏRTAC-ın xarici ələqələrinə də müsbət təsir göstərir. Agentlik beynəlxalq informasiya təşkilatlarında fəal təmsil olunmaqla yanaşı, 45-dək xəbər agentliyi ilə ikitərəfli əməkdaşlığa dair sazişlər imzalayıb. V Konqresə Azərbaycanın və AZƏRTAC-ın ev sahibi seçilməsində bu faktorun da rolu az olmayıb. Cəsarətlə demək olar ki, Dünya Xəbər Agentliklərinin Bakı Konqresi Azərbaycanın yaratdığı reallıqlar fonunda beynəlxalq aləmə yeni mesaj olmuşdur. Dünya Xəbər Agentliklərinin V Konqresinin iştirakçılarının bir qrupunu qəbul edən Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "… bu qlobal tədbirə ev sahibliyi etmək böyük şərəfdir. Dünyanın bu qədər çoxlu sayda aparıcı xəbər agentliklərinin nümayəndələrinin Bakıda toplaşması çox əlamətdar haldır. Bu, ölkəmizin təqdimatı üçün yaxşı imkan yaradır… müstəqil ölkə kimi Azərbaycan gənc bir dövlət olmasına baxmayaraq, zəngin tarixə, ənənələrə, mədəniyyətə malik bir ölkədir… biz hələ də özümüzü təqdim etmək üçün çox işlər görməliyik. 25 illik dövr bunun üçün kifayət deyil. Bu baxımdan biz dünya miqyasında müxtəlif tədbirlər, o cümlədən mədəniyyət sahəsi, iqtisadi potensialımızın təqdim edilməsi ilə bağlı tədbirlər keçiririk. Lakin təqdimatın ən yaxşı yolu qonaqlara burada ev sahibliyi etməkdir. Xüsusilə, o qonaqları ki, onlar gündəlik işlərində beynəlxalq ictimaiyyəti dünyada gedən proseslərlə məlumatlandırırlar. Buna görə, bu baxımdan fikrimcə, Bakıda bu Konqresin keçirilməsi mühüm əhəmiyyət kəsb edir". Diqqətçəkən daha bir məqam odur ki, Konqres çərçivəsində AZƏRTAC ilə İspaniyanın EFE, Paraqvayın İP, Bəhreynin BNA agentlikləri arasında informasiya və təcrübə mübadiləsinə dair müqavilələr imzalanmışdı. Bununla yanaşı, Dünya Xəbər Agentlikləri Konqresinin rəhbər orqanları seçilmiş, Yekun Bəyannamə qəbul olunmuşdu. Konqresdə sədrlik AZƏRTAC-a keçmiş və agentlik 2016-2019-cu illərdə bu mötəbər beynəlxalq quruma uğurla rəhbərlik etmişdir.

Bununla yanaşı, Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) XVI Baş Assambleyasına və MDB Dövlət İnformasiya Agentlikləri Rəhbərləri Şurasının (İnformşura) XXII iclasına da Bakının ev sahibliyi etdiyi tədbirlərdə dünyanın 80 ölkəsindən informasiya siyasətinin əsas istiqamətlərini müəyyənləşdirən 190-a yaxın xəbər agentliyinin rəhbərləri və təmsilçiləri, media üzrə beynəlxalq ekspertlər, BMT - UNESCO-nun rəsmi nümayəndəsi, həmçinin regional media qurumlarının əməkdaşları iştirak edirdilər. Konqresdə dünyanın bütün qitələrindən xəbər agentlikləri təmsil olunurdu. Belə ki, Asiyanın 31 ölkəsindən 39 agentliyin 77 nümayəndəsi, Avropanın 23 ölkəsindən 30 agentliyin 51 təmsilçisi, Afrika qitəsinin 16 ölkəsindən 16 agentliyin 25 nümayəndəsi, Amerika qitəsinin 7 ölkəsindən 9 agentliyin 17 əməkdaşı, habelə Avstraliyanın 3 agentliyini təmsil edən 4 nümayəndə gəlmişdi. OANA 1961-ci ildə UNESCO-nun təşəbbüsü ilə regionun xəbər agentlikləri arasında informasiya mübadiləsinə kömək məqsədilə yaradılıb. Təşkilata 35 ölkədən 44 agentlik daxildir. AZƏRTAC 2004-cü ildən bu beynəlxalq quruma fəal təmsil olunur, üç dəfə büro üzvü seçilib. 2013-cü ildə Moskvada keçirilən XV Baş Assambleyada AZƏRTAC gizli səsvermə yolu ilə 2016-2019-cu illərdə bu təşkilata sədrlik etmək hüququ qazanmışdı. Eyni vaxtda iki böyük təşkilata sədrlik etmək həm məsuliyyətli, həm də bir qədər çətin olsa da, AZƏRTAC-ın beynəlxalq əlaqələrinin inkişaf səviyyəsi, hər iki mötəbər qurumun üzvü kimi əldə etdiyi zəngin təcrübə bu mühüm vəzifənin öhdəsindən layiqincə gəldiyini deməyə əsas verir.

Agentlik 2003-cü ilin yanvarından bayram və bazar günləri də daxil olmaqla, fasiləsiz iş rejimində çalışır. Günün istənilən saatında AZƏRTAC-ın əməkdaşları iş başındadır, kütləvi informasiya vasitələrinə, internet şəbəkəsinə fasiləsiz olaraq xəbərlər ötürülür. İndi AZƏRTAC hər gün ölkənin və dünyanın xəbər məkanına 400-dən çox informasiya çatdırır. Belə məhsuldar və gərgin iş rejiminə baxmayaraq, xəbərlərin keyfiyyətinə, doğruluğuna və maksimum operativliyinə xüsusi diqqət yetirilir. AZƏRTAC məhz buna görə həm ölkə daxilində, həm də beynəlxalq miqyasda ən etibarlı, dürüst xəbər yayan agentlik kimi qəbul edilir və imicini bu gün də qoruyub saxlayır.

**AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan ASLANOV:**

> "Yadımdadır, 2002-ci ilin oktyabrında ulu öndər Heydər Əliyev mənə tapşırdı ki, çalışın AZƏRTAC dünya informasiya məkanına çıxsın. Bunun yolunu da göstərdi. Yaxşı xatirimdədir, dedi ki, informasiya agentliklərinin beynəlxalq təşkilatlarına üzv olun, milli xəbər agentlikləri ilə sıx əlaqələr qurun. Bizim EANA-ya, OANA-ya, sonradan bütün dünyanın xəbər agentliklərini öz sıralarında birləşdirən Konqresə gedən yolumuz, beynəlxalq əməkdaşlığımızın tarixçəsi belə başladı."

**Mustafa KAMAL,**
**"Respublika".**